## EXHIBITS RELATED TO THE 44-DAY PATRIOTIC WAR AND THEIR DISPLAY STATUS IN THE NATIONAL MUSEUM OF AZERBAIJAN HISTORY

***Jabbarova Elnara Oktay***

***Summary***

In the article, the important activities of the National Museum of Azerbaijan History, which plays a very important role in demonstrating the unparalleled heroism of the Azerbaijani people in the 44-day Patriotic War and the magnificent historical victory they won, both in our Republic and in the international world, were paid attention to, and the attitude towards this process was analyzed.

***Rəyçi:t.ü.f.d.Vüsal Baxışov***
***ADPU-nun Şəki filialı, Humanitar fənlər kafedrasının 29 noyabr 2022-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 02 dekabr 2022-ci il***

**UOT:94**

## XX ƏSRİN 60-CI İLLƏRİNDƏ ABŞ-IN LATIN AMERİKASI REGİONUNDA SİYASƏTİNƏ DAİR TARİXŞÜNASLIQ

***dosent Hüseyn Bəxtiyarlı***
***Gəncə Dövlət Universiteti***
***Huseyn.bextiyarli@bk.ru***

**Xülasə:** *Məqalədə dünyanın aparıcı dövləti olan ABŞ-ın Latın Amerikası regionunda iqtisadi və siyasi fəaliyyətinin tarixşünaslıq məsələləri araşdırılmışdır. Qeyd edilmişdir ki, göstərilən məsələlər müxtəlif əsərlərdə bu və ya digər formalarda öz tədqiqini tapmışdır. Bu baxımdan Azərbaycan dilində nəşr edilmiş əsərlər sırasında M.Qasımlı və S. Mustafayeva tərəfindən nəşr edilmiş dərslikləri xüsusi qeyd etmək olar. Həmin dərsliklərdə XX əsrin 60-cı illərində ABŞ-ın reginona müdaxiləsi və bunun nəticəsi olaraq Karib böhranının baş verməsi, ABŞ-SSRİ ziddiyyətlərinin ən kritik həddə çatması ciddi şəkildə əsaslandırılmışdır. Eyni zamanda rus müəlliflərinin əsərlərində də problem araşdırlmış və müəlliflər tərəfindən münasibət bildirilmişdir. Müəlliflər göstərirlər ki, XX əsrin 60-cı illəri beynəlxalq aləmdə bir çox hadisələrlə yadda qalsa da, bunların sırasında Sovet-ABŞ münasibətləri mühüm məsələlər sırasında idi. ABŞ-ın regiona müxtəlif pöroqramlarla müdaxiləsi SSRİ-nin maraqlarına uyğun gəlmədiyinə görə dünyanın bu iki super dövləti arasında münasibətlər daha gərgin xarakter almağa başladı. Bu da nəticə etibarı ilə beynəlxalq gərginliyi dünya müharibəsi həddinə çatdırdı. Bunun qarşısını almaq məqsədilə BMT Baş katib səviyyəsində problemə müdaxilə etməyə başladı. Çətinliklə də olsa gərginlik aradan qaldırıldı və dövlətlərarası münasibətlər bərpa olundu.*

**Açar sözlər:** Latın, Region, Siyasət, İqtisadi, Tarixşünaslıq
**Ключевые слово:** Латинский, Область, Политика, Экономика, Историография
**Key words:** Latin, Region, Politics, Economics, Historiography

XX əsrin 60-cı illərində ABŞ-ın Latın Amerikası regionunda siyasəti məsələsi müasir dövrün tarixşünaslığında aktuallıq kəsb edəb edən problemlər sırasındadır. Belə ki, məhz, həmin dövrdə ABŞ-ın regionda yeritdiyi siyasət Latın Amerikası ölkələrinin sonrakı inkişafına güclü təsir göstərmişdir.

Qeyd etmək lazımdır ki, ABŞ beynəlxalq vəziyyəti, habelə, regionda cərəyan edən ictimai-siyasi prosesləri nəzərə alaraq Latın Amerikası istiqamətli siyasətini dəyişmək qərarına gəldi. Bu baxımdan Kenedinin hakimiyyətə gəlməsindən sonra regionla bağlı irəli sürülən "Tərəqqi naminə ittifaq" proqramı böyük maraq doğurur. Proqramın elan edilməsi Kuba istisna olmaqla Latın Amerika ölkələrinin iqtisadi yüksəlişini təmin etməklə yanaşı, onalrın ABŞ-dan siyasi asılılığını da gücləndirməli idi. Yeni proqramın uzun müddətli olmasına baxmayayaq, Kennedinin qətli və ABŞ-da Conson administrasiyasının formalaşması Latın Amerikası ölkələrində hökmranlıq siyasətinə qayıtmağa zəmiin yaratdı.

Mövzunun aktuallığı həm də onunla şərtlənir ki, ABŞ XX əsrin 60-cı illərində olduğu kimi, bu gün də regionda öz nüfuzunu gücləndirməyə çalışır. Bu istiqamətdə ABŞ müttəfiqlərini də cəlb etməkdən çəkinmir.

Ümumiyyətlə, araşdırılan mövzu kifayət qədər ciddi əhəmiyyət daşıyır və bu istiqamətdə geniş ədəbiyyat bazası mövcuddur. Həmin əsərlərdə ABŞ-ın beynəlxalq maraqları çərçivəsində Latın Amerikası ölkələrində təsir imkanları, xüsusilə, iqtisadi yardımın həyata keçirilməsi, aparıcı ABŞ sənayesi üçün vacib sahələrə maliyyə vəsaitinin yönəldilməsi, bununla regionda ABŞ-ın hökmranlığının yaradılması məsələləri ciddi şəkildə araşdırılmışdır.

Bu baxımdan Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 1945-2000. B.2003. kitabını xüsusi qeyd etmək olar (1). Kitabda qeyd edilir ki, 60-cı illərin əvvəllərindən başlayaraq ABŞ-ın hakim dairələri Latın Amerikası regionuna qarşı fərqli münasibət bildirməyə balşadılar. Bunun başlıca səbəbi Kuba ABŞ hakimiyyətinə qarşı inqilabın geniş miqyas alması idi. Kennedi hakimyyətə gəldikdən sonra ölkə administrasiyası belə qənaətə gəldi ki, Latın Amerikası regionniua münasibbət dəyişməlidir. Çünki, region iqtisadiyyatına maliyyə dəstəyi etmədən siyasi nəzarəti gücləndirmək mümkün olmayacaqdır. Buna görə də "Tərəqqi naminə ittifaq" proqramı irəli sürüldü ki, bununla ABŞ-ın təsir dairəsi genişləndirilmiş oldu. Qeyd edilməlidir ki, 60-cı illərin ortalarında Consonun hakimiyyətə gəlməsindən sonra Kennedinin irəli sürdüyü proqram öz əhəmiyyətini tamamilə itirdi. Ənənəvi "Böyük dəyənək" siyasəti yenidən əhəmiyyət daşımağa başladı. Bu siyasət 60-cı illərin ortalarında kifayət qədər ciddi xarakter aldı.

60-cı illərin sonlarında Vaşinqtonu təəccübləndirən ciddi məsələlərdən biri Latın Amerikasındakı hadisələrlə bağlı idi. Xüsusilə, bütün ABŞ-ın hakim dairələri və inhisarçı burjuaziya 1970-ci ildə Çilidə S. Alyendenin rəhbərliyi altında Vahid Xalq hökumətinin yaranmasını düşmənçiliklə qarşıladılar. Amerika sağ inhisarçı dairələri və Vaşinqtonun rəsmi nümayəndələri S. Alyendenin hökumətini devirməyin planını hazırladılar. Amerika qitəsi Birləşmiş Ştatların göstərişini Latın Ameri-kası xalqları böyük müqavimətlə qarşıladılar.

Amerika qitəsi xarici işlər nazirliklərinin növbəti konfransında Amerika dövlətlərinin təşkilatının sıralarından çıxmaq məsələsi də qoyulmuşdu. Onun hakimiyyətinin ilk illərində ölkənin xarici siyasətinin dəyişəcəyi haqqında müəyyən fikirlər səslənsə də real olaraq bu iddialar öz təsdiqini tapmadı. Nikson Latın Amerikası siyasətində Londonun siyasətini təkrarlamasa da, praktik olaraq ortaq yollar axtarmağa başladı.

Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. 1945-2007-ci illər. B. 2011. kitabında isə göstərilir ki, Latın Amerikası regionu nəzərdən keçirilən illərdə inqilabi həyəcanlar dövrünü keçirirdi (2). Kubada başlanan inqilab digər Latın Amerikası

ölkələrinə də yayılmaqda idi. ABŞ-ın hakim dairələri inqilabi çıxışların başqa bölgələrə keçməsinin qarşısını almaq üçün müxtəlif proqramlar irəli sürməyə çalışırdılar. Bununla ABŞ öz təsirini bütün region ölkələri üzərində möhkəmləndirməyə çalışırdı. Bu məqsədlə irəli sürülən "Tərəqqi naminə ittifaq" proqramı mühüm əhəmiyyət daşıyırdı. Aydındır ki, proqram başlıca olaraq regionun hakim dairələrinin iqtisadi maraqlarının təmin olunmasına yönəlmişdi. Buna görə də ayrı-ayrı Laatın Amerikası ölkələrinin yuxarı elitası proqramın qısa müddətdə mühüm nəticələr verəcəyini nəzərə alıb böyük maraqla onu qəbul etdilər.

1962-ci ildə Latın Amerikasındakı beynəlxalq münasibətlərə təsir göstərən ən mühüm hadisə Karib böhranı oldu. Karib böhranı 1962-ci ilin payızında ABŞ-la Kuba və ABŞ-la SSRİ arasında ziddiyyətlərin kəskinləşməsi nəticəsində yarandı. Kubaya Latın Amerikasında öz strateji müttəfiqi kimi baxan SSRİ 1962-ci ilin yayında orada gizli şəraitdə orta mənzilli raketlər, yerləşdirmişdi. ABŞ 1962-ci il oktyabrın 16-da bu barədə məlumat aldı. ABŞ prezidenti C.Kennedi dərhal həmin raketlərin (bu raketlərin fəaliyyət radiusu ABŞ-m bir neçə iri şəhərini əhatə edirdi) Kubadan çıxarılmasını tələb etdi. Oktyabrın 22-də ABŞ Kubanı dənizdən və ha-vadan blokadaya aldı. Kuba sahillərinə 183 hərbi gəmi göndərdi.

Həmin gəmilərdə 85 min dəniz piyadası var idi. Bu mühasirə Kubaya başqa ölkələrdən silah və hərbi texnika göndərilməsinin qarşısını almalı idi. Kuba və SSRİ ABŞ-m hərəkətlərini beynəlxalq hüquqa zidd hesab edərək onun iradəsinə tabe olmaq niyyətində deyildilər. Nəticədə nüvə müharibəsinə çevrilə biləcək kəskin hərbi qarşıdurma yarandı. ABŞ özünün həm ölkədə, həm Avropada, həm də dənizlərdə yerləşən silahlı qüvvələrini yüksək döyüş hazırlığı vəziyyətinə gətirdi. Oktyabrın 23-də SSRİ və Varşava Müqaviləsi Təşkilatına daxil olan digər ölkələr də cavab tədbirləri gördülər.

Kuba ordusu da döyüşə hazır vəziyyətə gətirildi. Oktyabrın 24-də Karib hövzəsində vəziyyət BMT Təhlükəsizlik Şurasında müzakirə edildi. Burada ABŞ SSRİ-ni Karib hövzəsində vəziyyəti qəsdən mürəkkəbləşdirməkdə ittiham etdi. SSRİ Kubanı müdafiə etmək məqsədi ilə raketlərini yerləşdirdiyini bildirdi. İclasda Rumıniya SSRİ-nin və Kubanın mövqeyini müdafiə etdi. Birləşmiş Ərəb Respublikası və Qana ABŞ-ın hərəkətlərinin dəniz azadlığı prinsipinə zidd olduğunu, sülh və təhlükəsizlik üçün qorxu yaratdığını qeyd etdilər. Onlar eyni zamanda ABŞ, SSRİ və Kubanı böhranı birbaşa dinc yolla həll etməyə çağıran qətnamə layihəsi təklif etdilər.

Ancaq, Kennedinin vəfatı ABŞ-ın Latın Amerikası regionu siyasətində ciddi problemlər yaratdı. Hakimiyyətə gələn Lindon Conson "Böyük dəyənək" siyasəti həyata keçirərkən ənənəvi siyasəti davam etdirməyə çalışdı. Doğrudur, bu qismən də olsa özünün müsbət nəticəsini ABŞ-ın mənafeyi baxımından verdi. Qeyd edək ki, bütün bu məsələlər kitabda ciddi şəkildə öz əksini tapmışdı. Buna görə də kitabdan istifadə edilməsi zəruridir.

Александров В.В. Новейшая история стран Европы и Америки. 1945-1986. М., 1988. kitabında da mövzumuzla əlaqədar geniş məlumatlar toplanmışdır (3). Qeyd edilir ki, 60-cı illər dünya siyasi arenasında ciddi dəyişikliklər baş verməkdə idi. Belə ki, siyasi qüvvələr arasında gedən mübarizə Latın Amerikası regionunda siyasi qarşıdurmalara zəmin yaratdı. Region xalqları arasında Kuba daha çox siyasi və inqilabi həyacanlar yaşayırdı. Təbii ki, belə mürəkkəb şəraitdə ABŞ rəhbərliyi Latın Amerikası siyasətində əsaslı dəyişikliklər etməyi vacib hesab edirdi. Bununla ABŞ digər region təşkilatlarında olduğu kimi, yeni-yeni proqramlala da regionu özünün təsir dairəsində saxlamağa çalışırdı. 60-cı illərin ortalarında artıq Kuba dövləti istisna olmaqla demək olar ki, Latın Amerikası regionu ölkələri ABŞ-ın təsir dairəsində idi. ABŞ iqtisadi əməkdaşlığı rəhbər tutmaqla yanaşı, həmçinin, daha onun üçün həyati əhəmiyyət kəsb edən sahələrə maliyyə vəsaiti qoymağı diqqət mərkəzində saxlayırdı. Ümumiyyətlə, qeyd etdiyimiz bu məsələlər kitabda özünün dərin əksini tapmışdır.

История новейшего времени стран Европы и Америки.1945-1990. М., 1993. kitabında isə vurğulanır ki, XX əsrin 60-cı illəri dünya siyasətində yeni məzmun kəsb edən hadisələr baş verməkdə idi (4). Belə ki, bir tərəfdən sosializm sisteminin möhkəmlənməsi, digər tərəfdən isə Latın Amerikası regionunda inqilabi həyəcanların genişlənməsi yeni siyasi müstəvidə diplomatik danışqlar aparmağı zəruri edirdi. Doğrudur, belə danışıqlar başlıca olaraq SSRİ və ABŞ arasında gedirdi. Ancaq, bununla belə region ölkələri bu danışıqların gedişində əsas mövzu olaraq qalmaqda idi. ABŞ-ın yüksək dairələri hesab edirdi ki, Kubada hər hansı islahatlar keçirmək qeyri-mümkündür. Buna görə də, Latın Amerikasının digər regionlarında iqtisadi proqramlarla çıxış etmək ciddi nəticələr verə bilər. Təbii ki, belə şəraitdə tətbiq olunacaq proqram regionun ümumi inkişafı ilə yanaşı olaraq, ABŞ-ın iri şirkətlərinin ayrı-ayrı Latın Amerikası ölkələrində əsaslı şəkildə nüfüzünü təmin etməli idi. Ümumiyyətlə, 60-cı illərin əvvəllərindən başlayaraq Latın Amerikası ölkələri ABŞ dövləti ilə bu və ya digər dərəcədə əməkdaşlıq etmiş, bununla regionda sülh və təhlükəsizlik də təmin olunmuşdur. Qeyd edilən məsələlərin kitabda əks olunması onun dəyərini daha da artırır.

Argentinadan savayı, bir çox region ölkələri əsas ərzaq məhsullarının idxalına olduqca çoxlu miqdarda kapital sərf edirlər. Maraqlı cəhəti odur ki, regionda kənd təsərrüfatı iri latifundiyalara əsaslanır, onlar da dünya bazarına istiqamətlənmişdir. Torpaqların çox hissəsi xarici şirkətlərin əlindədir. Latifundiya sahibləri ucuz işçi qüvvəsinə, texnikiya nisbətən daha çox üstünlük verir. Kiçik torpaq sahibləri isə qiymətli texnikadan, kübrə va elmin nailiyyətlərindən istifadə edə bilmir.

Düzdür bu heç də əksər ölkələr üçün xarakterik deyildir. Belə ki, son on ildə bir çox ölkələrdə kapitalist istehsal münasibətləri inkişaf etdirilməyə, texnika, kübrə və müasir aqrar münasibətlərindən səmərəli istifadə edilməyə başlanmışdır. Permer tipini xatırladan belə təsərrüfatlar artıq Meksika, Argentina, Braziliya, Çili və Venesuelada özünü göstərməyə başlamışdır. Onlarda da əmtəəlik məhsul xarici bazarlara istiqamətlənməkdədir.

Latın Amerikasında balıqçılıq son 15-20 ildə sürətlə inkişaf etməyə başlamışdır. Sahilyanı ərazilərdə balıq ovu və emalı çox da iri olmayan gəmilərlə həyata keçirilir. Meksika, Çili, Peru və Braziliyada nisbətən ən yaxşı inkişaf etmişdir və ixrac istiqamətlidir.

Latın Amerikası ölkələrinin iqtisadi həyatında beynəlxalq iqtisadi əlaqələrin olduqca böyük əhəmiyyəti vardır. Uzun illər boyu müstəmləkə dövrü yaşayan, xarici bazarda xammalla çıxış edən, dar ixtisasa malik olmuş, indi isə müstəqillik şəraitində xarici kapitaldan asılı vəziyyətdə fəailyyət göstərən ölkələr getdikcə daha fəal surətdə dünya təsərrüfatına inteqrasiya olunur.

Hələ də region ölkələrinin əksəriyyəti dünya bazarında bir-iki əmtəəlik kənd təsərrüfatı və ərzaq məhsulları ilə çıxış edir. Ölkələrinin əksəriyyəti idxaldan, xüsusilə də yeni texnoloji avadanlıq çatışmazlığından asılı vəziyyətdədir. Bu region-da getdikcə xarici kapitaldan asılılığın artması, xarici borcların iqtisadiyyata tam nəzarət etməsinə, mononoliyaların isə əksinə, varlanmasına stimul yaradır.

Beləliklə, Lindon Consonun həyata keçirdiyi Latın Amerikası siyasəti ABŞ-n regionda nüfuzunu kifayət qədər gücləndirdi. ABŞ rəhbərliyi belə qənaətdə idi ki, artıq Latın Amerikası regionu ABŞ-ın təsir dairəsinə düşmüşdür.

Хрестоматия по новейшей истории.В.3-х ТТ. М.,1960-1961.kitabı ayrı-ayrı məsələləri özündə toplamışdır (5). Bu baxımdan 1959-cu ilin ortalarında Kuba inqilabının qarşısını almaq cəhdləri boşa çıxandan sonra ABŞ Kubaya qarşı mübarizə üçün bütün qüvvələrini cəmləşdirməsini göstərmək olar. İlk növbədə amerikan diplomatiyası Amerika Dövlətləri Təşkilatından istifadə etdi.

Язьков Е. Ф. История стран Европы и Америки в новейшее время. 1945-2000. М.,2001. kitabı da mövzumuzun araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir (6). Kitabda göstərilir ki,1968-ci ildə ABŞ-da keçirilən prezident seçkilərində R. Nikson yeni ölkə prezidenti seçildi. Həmişə düşünərək qərar qəbul etməyi sevən Riçard Nikson 1974-cü ilin avqustuna qədər ABŞ-ın prezidenti oldu. 1969-cu ilin ikinci yarısından etibarən sənaye istehsalı nəzərə çarpacaq şəkildə aşağı düşməyə başlamışdır.

Sənaye məhsulları istehsalı 1969-cu ilin sentyabrına nisbətən 1970-ci ilin noyabrında 8,3%, illik sənaye istehsalının göstəricisi 1969-cu ildə 110,7% təşkil etdiyi halda, 1970- ci ildə 107,8% aşağı düşmüşdü. Əgər 1969-cu ilin dekabr ayında işsizlərin ümumi sayı ABŞ-da 2,8 milyon nəfər təşkil edirdisə, 1971- ci ilin yanvarında onların sayı artaraq 8 milyon nəfərə çatmışdı ki, bu da ölkədə ümumi işçi qüvvəsinin 6%-ni təşkil edirdi (8,1).

1969-1970-ci illərin iqtisadi böhranı təkcə sənayeni əhatə etmirdi. O, hər şeydən öncə müharibədən sonrakı dövrdə daha çox kredit-birja böhranı kimi müşayiət olunurdu. Birjalarda olan səhmlərin dəyəri 300 milyard dollar aşağı düşmüşdü. Elektrik təchizatının pisləşməsi əsas sənaye sahələrinin dayanmasına və qiymətlərin yenidən artımına səbəb oldu (7,1).

Bu əsərlərlə yanaşı olaraq son illərdə də yeni-yeni əsərlər yazılmaqdadır. Emi məqalənin yazılmasında da məqsəd bu günə kimi nəşr edilmiş əsərlərdəki məlumatları müqayisə edərək qaranlıq qalan məsələləri aydınlaşdırmaqdan ibarətdir.

### *Ədəbiyyat*

1. Qasımlı M. Avropa və Amerika ölkələrinin müasir tarixi. 1945-2000. B.2003.
2. Mustafayeva S. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. II hissə. 1945-2007-ci illər.B. 2011.
3.Александров В.В. Новейшая история стран Европы и Америки. 1945-1986. М., 1988.
4.История новейшего времени стран Европы и Америки.1945-1990. М.,1993.
5.Хрестоматия по новейшей истории.В.3-х ТТ. М.,1960-1961.
6.Язьков Е. Ф. История стран Европы и Америки в новейшее время. 1945-2000. М.,2001.
7.www.google.az. İqtisadi böhran.
8.www.google.az. Nikson hökuməti.

## ИСТОРИОГРАФИЯ ПОЛИТИКИ США В ЛАТИНОАМЕРИКАНСКОМ РЕГИОНЕ В 60-Х ГГ. ХХ ВЕКА

***Бахтиярлы Гусейн***

***Резюме***

В статье исследуется историография экономического и политического вмешательства США в регионе. Было отмечено, что отечественные и зарубежные историки в своих трудах представили достаточно информации об интервенции США. Из этой информации ясно, что вмешательство США в регион создало очень серьезные проблемы. Одной из таких проблем был Карибский кризис. Известно, что карибский кризис разрешился при посредничестве генсека ООН.

## HISTORIOGRAPHY OF US POLICY IN THE LATIN AMERICAN REGION IN THE 60S OF THE XX CENTURY

***Bakhtiyarlı Huseyn***

***Summary***

The article examines the historiography of US economic and political intervention in the region. It was noted that national and foreign historians have provided sufficient information in their works on the US intervention. It is clear from these reports that the US intervention in the region has created very serious problems. One of these problems was the Caribbean crisis. It is known that the Caribbean crisis was resolved through the mediation of the UN Secretary General.

***Rəyçi: dosent Etibar Musayev***
***Ümumi tarix kafedrasının 10 iyun 2022-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 14 oktyabr 2022-ci il***

**UOT: 9(4794)**

## AZƏRBAYCAN TARİXİNDƏ ZƏRDÜŞTİLİK DİNİNİN MÖVQEYİ

***Əhmədova Türkan Yusif qızı, Rzayeva Tamilla Zahir qızı***
***Azərbaycan Dövlət Aqrar Universiteti***
***Sevda.abdullayeva.1986@mail.ru***

**Xülasə:** *Azərbaycanda tarixin müxtəlif dövrlərində müxtəlif dinlər və inanc sistemləri mövcud olmuşdur. Qədim Azərbaycan dövlətləri olan Atropatena və Albaniya ərazisində yayılmış dinlər arasında zərdüştilik (məcusilik) mühüm yer tuturdu. Bu din onun banisi Zərdüştün adı ilə bağlıdır.*

*Zərdüştilik təkcə Azərbaycanda deyil, İranda, Orta Asiyada, Hindistan və digər ərazilərdə də əsas dinlərdən birinə çevrilmişdir. Zərdüştilik və onunla əlaqəli dini-fəlsəfi sistemlər digər dinlərə də öz təsirini göstərmişdir.*

*Zərdüştilik təlimi, bu dinin müqəddəs kitabı olan Avestada öz əksini tapmışdır. Avesta Orta Asiyanın qədim xalqlarının, o cümlədən Azərbaycan xalqının əcdadlarının müqəddəs saydıqları ədəbi abidələrdən və kitablardan biridir. Bu kitabda ölkəmizin qədim əhalisinin dini, əxlaqi, sosial, siyasi və fəlsəfi baxışlarının bir sıra aspektləri bədii şəkildə əks olunub.*

*Azərbaycanda İslam dini yayılana qədər öz əhəmiyyətini qoruyub saxlayan bu dini xalqımızın çoxəsrlik dünyagörüşünün təzahürü adlandırmaq olar. Bu komponentlər adət-ənənələrimizdə, milli bayramlarımızda öz əksini tapıb.*

*Müasir dövrdə zərdüştiliyin nümayəndələrinin sayı çox azdır. Hazırda dünyada bu dinin təxminən 130.000-ə yaxın nümayəndəsi vardır.*

**Açar sözlər:** din, Ahura Mazdah, Anqra Manyu, Avesta, atəşgah.
**Ключевые слова:** религия, Ахура Мазда, Ангра Манью, Авеста, камин
**Keywords:** religion, Ahura Mazda, Angra Manyu, Avesta, fireplace

Azərbaycan xalqının tarixi keçmişi haqqında təsəvvür formalaşdırmaq üçün ulu əcdadlarımızın sitayiş etdiyi qədim dinlərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Xalqımızın dini inancları qədim tarixi köklərə dayanır. Tarixin müxtəlif dövrlərində